ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

# Beynəlxalq Təhsil İcmalı



## İçindəkilər

02. Təhsilə maliyyə baxışı 2022
07. İcma Kollecləri və artan Mobillik
08. Qlobal öyrənmə böhranının vəziyyəti
10. Gənclərin təhsili və maarifləndirilməsi üzrə qlobal hesabat

Beynəlxalq Təhsil İcmalı
SENTYABR 2022

# Təhsilə maliyyə baxışı 2022

Təhsilə maliyyə baxışı (Education Finance Watch (EFW)), UNESCO Statistika İnstitutunun (UIS), Qlobal Təhsil Monitorinqi (GEM) və Dünya Bankının (WB) birgə əməkdaşlığı ilə illik qlobal təhsil maliyyəsinin ümumi vəziyyətinə dair illik hesabat hazırlanmışdır. Təhsilə maliyyə baxışı həmçinin (EFW) bütün dünyada təhsilin maliyyələşdirilməsi tendensiyalarını və problemlərini təhlil etmək üçün UNESCO, Beynəlxalq Valyuta Fondu (IMF) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ilə də əməkdaşlıq edir. Hesabatda, Covid-19 pandemiyasından sonra təhsil sektoru ilə bağlı maliyyə tendensiyaları da əhatə olunmuşdur. Hesabat əsasında hazırlanmış icmal son 10 ildə təhsil sektoru üzrə tətbiq edilən maliyyə strukturlarının və xərclərin, eləcə də Covid 19-un təsirlərinin xülasəsini əhatə edir.

**Dövlətin Təhsil sektoru üzrə Xərcləri**

COVID-19 pandemiyası təhsildə öyrənmə böhranını daha da dərinləşdirərək həm ölkələr arasında, həm də ölkə daxilində öyrənmə bərabərsizliyinin artmasına səbəb oldu. Bu da 1,6 milyarddan çox şagirdin təhsilinin dayandırılması ilə nəticələndi. Ölkələr məktəbləri qismən yenidən açmaq, distant və ya hibrid təhsil verməklə öyrənmə imkanlarını təmin etməyə çalışsalar da COVID-19 səbəbiylə qlobal öyrənmə böhranının yeni nəsil tələbələrə ömür boyu qazanc baxımından təxminən 21 trilyon dollara başa gələcəyi bildirilir.

Hesabatda COVID-19 pandemiyasının başlaması dövlətlərin təhsil sektoru üzrə xərclərinin əvvəlki illərlə müqayisədə azalmasına səbəb oduğu bildirilir. Dünya ölkələrinin 2019-cu ildə təhsil xərcləri 28% təşkil etmişdir. 2020-ci ildə isə dünya ölkələrinin 51%-də təhsil xərclərinin azalması müşahidə edilmişdir. COVID-19 pandemiyasının başlanğıcında yüksək gəlirli ölkələrlə müqayisədə aşağı gəlirli ölkələrdə bu göstərici daha aşağı (41%) olmuşdur. İqtisadi inkişaf təhsilin keyfiyyətinə bağlı olduğu kimi ali təhsil üzrə xərclər də iqtisadi artımla bağlıdır.

Hesabatın təhsil üzrə dövlət büdcəsinə dair hissəsinə nəzər yetirərkən aydın olur ki, təhsilə aşağı və orta gəlirli ölkələrin milli büdcələrində üstünlük verilməmişdir. Gəliri yüksək olan ölkələr isə milli büdcələrində təhsili prioritet olaraq önə çəkmişdir. Yüksək gəlirli ölkələrdə təhsil üçün ayrılan büdcə 2019-2021-ci illərdə dəyişilməz qalmış, 2022-ci ildə isə artım qeydə alınmışdır. Aşağı və orta gəlirli ölkələrdə isə vəziyyət fərqlidir. Burada büdcə üzrə təhsil payı 2019-cu ilin göstəricilərindən də aşağı düşmüşdür. 2020-ci ildə müşahidə olunan azalmadan sonra isə 2021-ci ildə artım qeydə alınsa da 2022-ci ildə yenidən azalma müşahidə olunur. Təhsil üzrə zəif nəticələr orta və aşağı gəlirli ölkələrdə qeydə alınmaqdadır. Buna səbəb isə COVID-19 pandemiyasının təhsil sektoruna vurduğu ziyanı bərpa etmək üçün kifayət qədər maliyyə resurslarının olmaması göstərilmişdir.

**Təhsilə ayrılan Maddi Yardım**

Hesabatdan aydın olur ki, 2020-ci ildə təhsilə ayrılan ümumi dəstək təqribən 18.1 milyard dollara çatmış və ibtidai təhsil üzrə (21%) , orta təhsil üzrə (19%) və orta təhsildən sonrakı mərhələ (8%) üzrə bölünmüşdür. 2020-ci ildə birbaşa büdcəyə dəstək ləğv edilsə belə, ikitərəfli donorlar təhsilə birbaşa (məqsədli) yardımı 349 milyon ABŞ dolları azaltsalar da təhsilə yardımı davam etdirmişlər. Təhsil sahəsində birbaşa yardımı artıran bir neçə böyük donor arasında Almaniya və Dünya Bankı 2020-ci ildə Səhra altı Afrika ölkələrinə təhsil yardımlarını 25 % artırmışdır. Bununla yanaşı, ümumi büdcə dəstəyindən hesablamalar da daxil olmaqla, 43 ikitərəfli donorlar 2019-cu ildən 2020-ci ilə qədər təhsilə yardımlarını 153 milyon ABŞ dolları azaltmışdır. Səudiyyə Ərəbistanı, Türkiyə, Böyük Britaniya və ABŞ kimi donorlar təhsilə yardımlarını 747 milyon ABŞ dolları dəyərində azaltmış, Fransa, Almaniya və Yaponiya isə 597 milyon ABŞ dolları artırmışdır.

Birbaşa ümumi büdcənin köməyi ilə hesablamalar 2020-ci ildə təhsil yardımını 19%-ə qədər artırmışdır. İlkin olaraq 10 illik büdcədə bu yardım 9% təşkil etdiyi üçün artım əhəmiyyət kəsb etmişdir. Birbaşa ikitərəfli yardımın xüsusilə də COVID-19 pandemiyasının təsirləri hesabına azalması narahatlıq doğurur. Belə ki , 2020-ci ildə təhsil üçün nəzərdə tutulmuş yardım qüvvədən düşərək digər sektorlara istiqamətləndirilmişdir. Yardım səhiyyə sektoruna yönəldilərək 2019-cu il üzrə 16,5% -dən 2020-ci il üzrə 19,3 %-ə qədər artıma səbəb oldu. İlkin olaraq 11% təşkil edən təhsil payı 9,7%-ə düşmüş, mülki əhaliyə olan dəstək isə 16,6%-ə qədər artmışdır.

**Təhsil Xərcləri üzrə Dəyişiklik**

Hesabatda son 10 ildə ümumi təhsil xərclərindəki dəyişiklikdə artımın olduğu öz əksini tapır. Bununla belə, xərclər COVID-19-un başlanğıcında stabil olaraq qalmışdır. Yüksək gəlirli ölkələrlə müqayisədə aşağı və orta gəlirli ölkələrin təhsil üzrə xərclərində artım qeydə alınmışdır. Belə ki, 2010-cu illə müqayisədə 2020-ci ildə aşağı və orta gəlirli ölkələrdə təhsil xərclərində 65% artım qeydə alınmışdır. Dövlətin ayırdığı Rəsmi İnkişaf Yardımı (ODA) töhfələri təhsil sektorunun ən böyük maliyyə mənbəyi hesab edilir. Buna baxmayaraq, xarici yardım da təhsil xərclərinin 2019-ci ildən 2020-ci ilə qədər 15% artmasına töhfə vermişdir.

**Dövlətin Təhsil Sektoru üzrə Xərclərindəki Dəyişiklik**

Hesabatda aşağı gəlirli ölkələr istisna olmaqla, digər dövlətlərin təhsil üzrə xərclərindəki dəyişiklik stabil qaldığı qeyd olunur. 2016-cı ildən bəri aşağı gəlirli ölkələrdə təhsil üzrə xərclər artaraq 2020-ci ildə 3,6%-ə qədər yüksəlmişdir. COVID-19 adambaşına düşən təhsil xərclərinin artmasına səbəb olmuşdur. Ölkələr üzrə adambaşına düşən xərclərdə böyük fərq müşahidə olunur. Aşağı gəlirli ölkələrdə adambaşına təhsilə ayrılan xərc 17%, yüksək gəlirli ölkələrdə isə 5% olduğu qeydə alınmışdır. Pandemiyanın başlamasına baxmayaraq, dövlət büdcəsindən 2019-cu ildən 2020-ci ilə qədər təhsilə ayrılan adambaşına xərclər yüksək səviyyədə qalmışdır. Təhsilə ayrılan xərclərin prioritetləşdirilməsi regiondan asılı olaraq dəyişdiyi bildirilir.



Beynəlxalq Təhsil İcmalı
SENTYABR 2022

**Təhsil sektoru üzrə Xüsusi Ayrılmış Yardım**

Hesabatda Təhsil sektoru üçün xüsusi ayrılmış yardıma dair məlumatlarda əks olunmuşdur. Belə ki, təhsil sektoru üçün xüsusi ayrılmış yardım payında azalma qeydə alınmışdır. 2019-cu ildə ilkin göstərici 11,7 %-dən 2020-ci ildə 9,7%-ə düşmüşdür. Buna səbəb, COVID-19 pandemiyası səbəbindən təhsil sektoruna ayrılan yardım payının səhiyyə sektoruna istiqamətləndirilməsi olmuşdur. Müxtəlif təhsil sahələrinə ayrılmış yardım payındakı durğunluq isə dəyişilməz olaraq qalmışdır. İbtidai təhsil üçün ayrılan yardım payının məbləği isə illərdir ki, çox aşağı səviyyədə qalmaqdadır.

**Ev Təsərrüfatının Təhsil üzrə Xərcləri**

Hesabatda həmçinin, ev təsərrüfatının təhsil üzrə xərclərinə dair ətraflı məlumat da yer alır. Ev təsərrüfatının təhsil üzrə ayırdıqları xərclərin səviyyəsi onun kifayət qədər dəyərləndirilməməsi ilə bağlıdır. Bu eləcə də valideynlərin övladlarını keyfiyyətli təhsillə təmin etmək istəklərindən irəli gəlir. Bir neçə ev təsərrüfatı istisna olmaqla, ailə üzvlərinin təhsilə xərclənən gəlir payı illər boyu stabil olaraq qalmışdır. Ev təsərrüfatlarının ümumi xərclərində təhsilin payı ölkələr arasında fərqli göstərilir. Belə ki, cənub-şərqi Avropa ölkələrində, o cümlədən Bosniya və Herseqovina, Şimali Makedoniya və Rumıniya və bir sıra Səhra altı Afrika ölkələrində ailələrin təhsil xərcləri 1% olduğu halda, Haiti və Livan kimi özəl məktəblərin yüksək faizinə malik olan ölkələrdə və Ruanda, Uqanda və Zambiya da daxil olmaqla digər Səhra altı Afrika ölkələrində 6%-dən çoxdur. Bundan əlavə ölkələrdə təhsil payı ev təsərrüfatının payına əsasən müəyyən edilir. Təhsilin maliyyələşdirilməsinin diqqətdən kənarda qalan cəhəti odur ki, aşağı və orta gəlirli ölkələrdə ev təsərrüfatları ümumi təhsil xərclərinin 39%-ni yüksək gəlirli ölkələrdə isə 16%-ni təşkil edir. Üstəlik, ölkələr daxilində yüksək gəlirli ailələr təhsilə daha çox pul xərcləyir və bu, bərabərsizliyi daha da gücləndirir. Ən çox xərc çəkənlər isə övladları özəl məktəbə gedən ailələrdir. Məsələn, bir çox hallarda ailələr ali təhsil xərclərini qarşılamaq üçün kredit götürməli və borc almalı olurlar.

**Təhsil Xərclərinin Monitorinqi**

Eyni zamanda, təhsil xərclərinin monitorinqindən aydın olur ki, məlumatların əlçatanlığı əhəmiyyətli dərəcədə artmışdır. Həmçinin, təhsil sektoru üçün ayrılmış maddi vəsait üzrə irəliləyiş qeydə alınmışdır. Təhsil xərclərinə dair məlumat mənbələrinin genişləndirilməsinə baxmayaraq, təhsil xərclərinə dair məlumatlardakı boşluqlar hələ də qalmaqdadır.

Son olaraq qeyd olunur ki, təhsilin siyasi prioritetlərinin azalması insan kapitalının inkişafının azalmasına, iqtisadi inkişafın ləngiməsinə və təhsilin maliyyələşdirilməsi üçün mövcud olan dövlət resurslarının azalmasına səbəb ola bilər. Bunun qarşısını almaq üçün ölkələr qlobal öyrənmə böhranını və tələbələr üçün xərcləri azaltmaq məqsədilə təhsil sektoruna investisiyalar ayırmalıdır.




*Mənbə: WB, GEM & UIS. (2022). Education Finance Watch. https://www.worldbank.org/en/topic/education/publication/education-finance-watch-2022*






# İcma kollecləri və artan mobillik

Becker Milton Fridman İqtisadi Araşdırmalar İnstitutu tərəfindən "İcma Kollecləri və Artan Mobillik" adlı hesabat hazırlanmışdır. Hesabatda Birləşmiş Ştatlarda kollec məzunları ilə yalnız orta məktəb diplomu olanlar arasında əmək haqqı fərqinin 1980-ci ildən bəri 2 dəfə artdığı qeyd olunur. Kollec məzunları ilə yalnız orta məktəb dərəcəsi olanlar arasında genişlənən iqtisadi uçurumun əsas səbəbi kimi isə bütün ştatlarda ali təhsilə sərmayənin azalması göstərilir. Belə ki, əksər iş yerləri orta təhsildən sonra ən azından kollec təhsili tələb edir və büdcə kəsrləri səbəbindən dövlət kollec və universitetlərdə təhsil haqqını artırır. Nəticədə bir çox tələbəni borca girməkdən xilas edən və ya ümumiyyətlə təhsilə davam etmək ümidi verən bir neçə mümkün variant qalır.

Birləşmiş Ştatlarda icma kollecləri əsasən **dörd illik kollec və universitetlər** kimi müəssisələrin qəbul tələblərinə cavab verməyənlərə, və ya sosial vəziyyəti aşağı olanlara təhsil verən müəssisədir. İcma kolleclərində təhsil səviyyəsi aşağı olan tələbələr, məhdud ingilis dili biliyi olan immiqrantlar, aşağı sosial-iqtisadi statusu olan tələbələr və peşə bacarıqları olmasına baxmayaraq ənənəvi siniflərdə təhsil ala bilməyən "zəif tələbələr"ə rast gəlinir. Bu tələbələr dörd illik institutlarda olan dəstək sistemlərinin məhdud olduğu və adətən daha az bacarıqlı təlimatçıların təhsil verdiyi icma kollec şəraitlərində inkişaf edə bilmirlər. Buna səbəb İcma kolleclərinin dörd illik təhsil müəssisələrində olduğu kimi yüksək təlim keçmiş müəllimləri işə götürmək və onlara külli miqdarda ödəniş etmək imkanının olmamasıdır. Bunun əvəzinə onlar daha az bacarıqlı təlimatçılar işə götürür və standart testlərə üstünlük verirlər. Bu da, tələbələrin böyük faizinin qiymət səviyyəsinin aşağı olması və ya imtahanlarda yaxşı nəticə göstərməkdə çətinlik çəkməsi ilə nəticələnir. İcma kolleclərində tələbələrin dərsə davamiyyət dərəcələri də dörd illik institutlara nisbətən daha aşağıdır, bu da digər təhsil müəssiələrində təhsil alanlarla müqayisədə problemdir, çünki yüksək motivasiyalı tələbələr dörd illik təhsil müəssisəsində uğur qazanmaq üçün müvəffəqiyyətlə məzun olmalıdırlar.

İcma kollec tələbələri kollecə başlayanda onların yaşı daha çox olur və məzun olmağa daha çox vaxt tələb olunur. Məlumatlar göstərir ki, bu amillər qeydiyyat zamanı olduğu kimi qazanclara da təsir göstərir.

Mənbə: Mountjoy, Jack. 2022. "Community Colleges and Upward Mobility." American Economic Review, 112 (8): 2580-2630. https://bfi.uchicago.edu/wp-content/uploads/2021/09/BFI_WP_2021-106.pdf

# Qlobal öyrənmə böhranının vəziyyəti

Dünya Bankı, Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF), Xarici İşlər, Birlik və İnkişaf Ofisi (FCDO), ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID), Bill və Melinda Qeyts Fondunun (BMGF) birgə əməkdaşlığı ilə **"Qlobal öyrənmə böhranının vəziyyəti: yeniləmə 2022"** adlı hesabat hazırlanmışdır. Hesabatda COVID-19 pandemiyasının başlanmasından etibarən təhsilin, məktəblərin fəaliyyətinin pozulması və dayandırılması səbəbindən təhsildə öyrənmə böhranının daha da ağırlaşdığından bəhs olunur. Qeyd olunur ki, təhsildə öyrənmə böhranının faizi davamlı olaraq artmaqdadır. Hesabatda qeyd olunur ki, pandemiyadan öncə öyənmə böhranının faizi artıq Səhra altı Afrikada 86%, aşağı və orta gəlirli ölkələrdə isə 57% təşkil edirdi. Təhsildə öyrənmə böhranını müəyyən etməyin yollarından biri 10 yaşında və ya həmin yaşa qədər uşaqların sadə bir mətni oxuyub anlaya bilməməsidir. Əgər öyrənmə böhranının böyük miqyası artıq bir problem hesab edilirdisə, pandemiya bunu daha da pisləşdirdi. Öyrənmə böhranının çox geniş yayılması təhlükəyə çevrilib və uşaqlarımızın gələcəyini, ölkəmizin iqtisadi vəziyyətini təhlükə altına qoyur.

Əgər təhsil böhranının qarşısı tələb olunduğu kimi təcili qaydada alınmazsa, bu gənc nəsli və uşaqları itirmək, insan kapitalı və təhsil fəlakəti ilə üzləşmək riskləri yaratmış olacaq. Hər bir cəmiyyətin bugünkü gənclərinin və uşaqlarının rifahı üçün aktiv şəkildə mübarizə aparması və müştərək tədbirlər həyata keçirməsi zəruridir. Bu böhranın həll yollarına yatırımların edilməsi, gəlir, rifah və məhsuldarlıq üzrə gələcək arzuolunmaz halların qarşısını almağa kömək edəcək ilkin şərtdir. Lakin yalnız məktəblərin yenidən açılması bu böhranın həllinə cavab deyil. Müəllimlər, siyasətçilər, ailələr və məktəblər bir araya gələrək təhsil prosesinin sürətləndirilməsi və bərpa edilməsi üçün daha yaxşı strategiyalar irəli sürməli və maddi dəstəklə təmin etməlidirlər. Hər bir kəs üçün bərabər imkanları təmin etmək, iqlim dəyişikliyinin davamlılığı barədə məlumatlılığı artırmaq və təhlükəsizliyi, stabilliyi, sülhü təşviq etmək üçün ədalətli cəmiyyətlərin qurulması son dərəcə vacibdir. Bu qlobal bir problemdir, bu səbəbdən, milli təşəbbüsləri dəstəkləmək və məlumatlılığı artırmaq üçün göstərilən səyləri birləşdirmək həyati əhəmiyyət kəsb edir.

Simulyasiya modeli statistikası göstərir ki, orta və aşağı gəlirli ölkələrdə 7-10 uşaq öyrənmə böhranından əziyyət çəkir. Bu o deməkdir ki, belə ölkələrdə 8 uşaqdan 1-i öyrənmə böhranı ilə üzləşir. UNICEF və USAID kimi təşkilatlar bu təhlükəni aradan qaldırmaq və möhkəm təhsil bünövrəsinin əsasını qoymaq üçün həmin ölkələr ilə sıx əməkdaşlıq edirlər. Bu, cəmiyyətin üzvlərindən ən yüksək siyasi vəzifələrə qədər hər kəsi əhatə edən bir məsələdir. Təcili həll yollarının düşünülməsi və həyata keçirilməsi üçün siyasi liderlər bu böhranın gənclərimizə, uşaqlarımıza və gələcəkdə dünya iqtisadiyyatına qarşı törədəcəyi təhlükəni izah etməlidirlər.
Bu səbəbdən, Dünya Bankı, UNICEF və UNESCO təhsil prosesinin sürətləndirilməsi və bərpa edilməsi üçün RAPID proqramını işləyib hazırlayıblar. Bu proqramın elementləri aşağıdakılardır:

1. Hər bir uşaqla əlaqə quraraq, onların məktəbə qəbul olmalarına köməklik göstərmək;
2. Uşaqların lazımi tələblərə cavab verərək növbəti sinifə keçmələrinə və dərsdə iştirak səviyyələrinə nəzarət etmək;
3. Uşaqların məktəbdə saxlanılmasını təmin etmək.

Bu özəlliklər nəzərə alındıqda müəllim sinifdəki bütün şagirdlərin bilik və bacarıqlarını yoxlamaq üçün düzgün qiymətləndirmə vasitələri ilə təmin olunmalıdır. Uşaqların təhsil səviyyələrinin qiymətləndirilməsi adətən müəllimə təhsilə başlama ilə bağlı düzgün təlimatları formalaşdırmağa kömək edir. Hər bir fənn üzrə istifadə ediləcək hesablama və oxuma-yazma kimi fundamental biliklərin və bacarıqların öyrədilməsinin prioritetləşdirilməsi əsasdır. Buna görə də, təlimatların səmərəliliyinin artırılması, sinifdə qarşılaşdıqları ani çətinliklərlə bağlı müəllimlərə kömək edən və təhsildə müxtəlif problemlərlə üzləşən uşaqlar üçün təhlükəsiz bir mühit yaradan "catch-up" təhsili (dərslərdən geri qalanların tez bir zamanda tələb olunan bilik və bacarıqlara yiyələnməri üçün təhsil forması) daxildir.

Bir çox ölkələr artıq qeyd olunan elementləri müxtəlif kombinasiyalarda olsa belə tətbiq ediblər. Bu prinsipləri qəbul etməmiş ölkələr təhsil böhranını məhdudlaşdırmaq üçün onları öz siyasətlərinə uyğunlaşdırmağı və daxil etməyi nəzərdən keçirməlidirlər. Təhsildə öyrənmə böhranının məhdudlaşdırılmasını təmin etmək həyati əhəmiyyət kəsb edir və hər kəsin xeyrinədir. Biz gələcək uğrunda mübarizə aparmalıyıq və bu mübarizə uşaqlarımız və gənclərimiz üçün lazımi səviyyədə təhsilin təmin edilməsindən başlayır.

Mənbə: World Bank, UNESCO, UNICEF, USAID, FCDO, Bill & Melinda Gates Foundation.2022. The State of Global Learning Poverty: 2022 Update. https://www.worldbank.org/en/topic/education/publication/state-of-global-learning-poverty



# Gənclərin təhsili və maariflənməsi üzrə qlobal hesabat

Gənclərin təhsili və maariflənməsi üzrə Qlobal Hesabat (GRALE), UNESCO-nun Ömür Boyu Təhsil İnstitutu (UIL) tərəfindən beş illik dövr üzrə beynəlxalq səviyyədə yaşlıların öyrənmə təhsilinin vəziyyətini qiymətləndirən hesabatdır. 2019 və 2020-ci illərdə baş tutan beşinci Yetkinlərin Öyrənməsi və Təhsili üzrə Qlobal Hesabat (GRALE) vətəndaş təhsili mövzusuna həsr olunub. Hesabatın əsas məqsədi qərar qəbul edən şəxslərə insani keyfiyyətləri gücləndirəcək və sosial dəyişikliyi təşviq edəcək effektiv siyasət və proqramların yaradılması və həyata keçirilməsinə dair sübuta əsaslanan yol göstərməkdir. Hesabatda əsas məqsəd vətəndaşlıq təhsilini müəyyənləşdirmək və onun məqsəd və vəzifələrini təsvir etməkdir. Bu hesabat Gənclərin təhsili və marifl ənməsi (ALE) proqramlarının vətəndaşlıq təhsilini necə inkişaf etdirə biləcəyinə diqqət yetirərək, dünya miqyasında gənclərin təhsili və maariflənməsinin vəziyyəti haqqında hərtərəfli məlumat təqdim edilir. Həmçinin gənclərin təhsili və maariflənməsi (ALE) proqramlarında vətəndaşlıq təhsilinin həyata keçirilməsi ilə bağlı çətinlikləri və imkanları nəzərə çatdırılır. Hesabat daha sonra gənclərin təhsili və maariflənməsi (ALE) proqramlarında vətəndaşlıq təhsilinin effektiv həyata keçirilməsinə dair siyasətçilər, müəllimlər və təcrübəçilər üçün tövsiyələrlə yekunlaşır.
Hesabatda vətəndaşlıq təhsili yetkin insanların vətəndaş olaraq öz hüquq və vəzifələrini öyrənmələri və onlara vətəndaş həyatında məhsuldar iştirak etmək üçün lazım olan bacarıqların verilməsi prosesi kimi müəyyən edilir. Bu arqumentə əsasən, vətəndaş təhsili həm demokratiyanın, həm də fərdi vətəndaşların rifahı üçün vacibdir. Vətəndaş təhsili gənclərə ictimai və siyasi həyatda fəal iştirak etmək və onların özləri və icmaları üçün mühüm məsələləri həll etməkdə lazım olan bilik və bacarıqları təmin etmək məqsədi daşıyır.

Hesabatda bildirilir ki, vətəndaş təhsili sahəsindəki yeniliklər, qismən yetkinlərin təhsili üçün daha çox imkanların olması və demokratik ideyaların daha geniş şəkildə qəbul edilməsi ilə bağlıdır. Hesabatda hələ öhdəsindən gəlməli olduğumuz çox çətinliklərin olduğuda məlum olur. Məsələn, bir çox yetkinlər üçün təhsil və öyrənmə proqramları hələ də vətəndaşlıq təhsilinə üstünlük vermir. Vətəndaşlıq təhsili başqa sahələrlə inteqrə şəkildə deyil adətən ayrıca bir kurs kimi öyrədilir. Yenə də, resurslar və müəllim hazırlığı ilə bağlı vətəndaşlıq təhsilinə investisiyalar kifayət qədər deyil və vətəndaşlıq təhsilinə daha çox investisiyanın ayrılması lazımdır. Vətəndaşlıq təhsilinin əlçatanlığını artırmaq üçün texnologiyadan istifadə mümkündür, lakin bu, inklüziv şəkildə həyata keçirilməli və tələbələrin müxtəlif öyrənmə üslubları nəzərə alınmalıdır.

Bundan əlavə, vətəndaşlıq təhsili yalnız rəsmi təhsil proqramlarına daxil olunmamalı, ömürboyu təhsil prosesi kimi nəzərdən keçirilməlidir. Bütün bunlar nəzərə alındıqda, müxtəlif vətəndaşlıq təhsili strategiyalarının effektivliyinin əlavə araşdırma tələb edəcəyi hesabatda öz əksini tapır.



Hesabatda həmçinin, siyasətçilər, müəllimlər və digər maraqlı tərəflər üçün bir sıra tövsiyələr yer alır. Aşağıda qeyd olunan təkliflər ən mühümləri arasında yer alır.




Hesabatda son olaraq, vətəndaşlıq təhsilinin yalnız məktəblə məhdudlaşdırılmamalı, ömürlük bir iş olduğu nəzərə alınmalı və müxtəlif vətəndaşlıq təhsili pedaqogikalarının effektivliyinin əlavə təhlili aparılmasının vacibliyi qeyd olunur.

*Mənbə: UNESCO Institute for Lifelong Learning. (2022). The Global Report on Adult Learning and Education (GRALE): Strengths, weaknesses and future directions. International Review of Education.*